Xalq qəzeti.- 2021.- 30 iyun.- S.10.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 181** **Bakı şəhəri, 24 iyun 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 2 avqust tarixli 194 nömrəli, "Qanunsuz müdaxilə aktları ilə bağlı təqdim edilmiş rabitə xidmətlərindən istifadə Qaydaları"nın və "Qanunsuz müdaxilə aktları ilə bağlı təqdim edilmiş rabitə xidmətlərinə görə haqqın ödənilməsi Qaydası və Şərtləri"nin təsdiq edilməsi barədə" 2013-cü il 28 dekabr tarixli 358 nömrəli, "Hava gəmilərinin yoxlanılması və onlara baxış keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2014-cü il 30 yanvar tarixli 29 nömrəli, "Aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı üzrə Milli Proqram"ın təsdiq edilməsi barədə" 2014-cü il 10 aprel tarixli 100 nömrəli, "Sərnişinlərə, onların əl yükü və baqajlarına baxış keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2014-cü il 10 iyul tarixli 226 nömrəli, "Hava gəmisində silahın daşınması Qaydası"nın təsdiq edilməsi barədə" 2014-cü il 30 dekabr tarixli 409 nömrəli və "Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət üzrə Milli Proqram"ın təsdiq edilməsi barədə".2015-ci il 16 iyun tarixli 231 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 avqust tarixli 194 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 994; 2018, № 4, maddə 832) ilə təsdiq edilmiş "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 dekabr tarixli 358 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1648; 2018, № 4, maddə 833) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Qanunsuz müdaxilə aktları ilə bağlı təqdim edilmiş rabitə xidmətlərindən istifadə Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 yanvar tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 77) ilə təsdiq edilmiş "Hava gəmilərinin yoxlanılması və onlara baxış keçirilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 10 aprel tarixli 100 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 445) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı üzrə Milli Proqram"da dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 10 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 914) ilə təsdiq edilmiş "Sərnişinlərə, onların əl yükü və baqajlarına baxış keçirilməsi Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 dekabr tarixli 409 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1683) ilə təsdiq edilmiş "Hava gəmisində silahın daşınması Qaydası"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 803) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət üzrə Milli Proqram"da dəyişikliklər təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***